

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 198 (21.099)

17 oktyabr 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Tacikistan Respublikasına rəsmi səfərə gedən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 16-da Düşənbədə, Millət Sarayında rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü olub.

Həmin gün təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Dövlət başçıları görüşdə çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi keçirilib.

Tacikistan Prezidenti Emoməli Rəhmon və Azərbaycan Prezidenti İlham Əliyev mətbuata birgə bəyanatlarla çıxış ediblər.

* * *

Oktyabrın 16-da Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevə Tacikistan Milli Universitetinin Fəxri Doktoru diplomunun təntənəli təqdim edilməsi mərasimi keçirilib.

## Müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir

*Dünən Yeni Azərbaycan Partiyası (YAP) Ordubad Rayon Təşkilatı Müstəqillik Günü münasibətilə tədbir keçirmişdir. Tədbiri giriş sözü ilə açan YAP Ordubad Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev "Müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir" mövzusunda məruzə etmişdir. Qeyd olunmuşdur ki, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunmuş, beləliklə, Azərbaycanın müstəqilliyi elan edilmişdir. Dövlət müstəqilliyinə gedən yol Naxçıvandan başlanmışdır. 1990-1993-cü illərdə ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda müstəqil dövlət quruculuğu istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, tarixi qərarlar qəbul olunmuşdur.*

Məruzəçi bildirmişdir ki, üçrəngli bayrağımız ilk dəfə dahi rəhbərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin sessiyasında qaldırılmış, Sovetlər Birliyinin yaşadığı bir vaxtda Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri götürülmüş, sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus silah-sursat və texnikanın Naxçıvanda saxlanılması şərtilə buradan çıxarılmış, onun bazasında ilk milli ordu yaradılmışdır. 1990-1993-cü illərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası milli azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı olmuşdur.

Vurğulanmışdır ki, müstəqilliyin ilk illərində hakimiyyətdə olanların səriştəsizliyi ucbatından yenicə qazanılmış dövlət müstəqilliyimiz ciddi təhlükələrlə üz-üzə qalmışdı. Yalnız 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Bakıya qayıdan ulu öndərin ölkəyə rəhbərliyi öz öhdəsinə götürməsindən sonra müstəqilliyimizin itirilmək təhlükəsi aradan qaldırılmışdır. Ümummilli lider həm dövrdə bir neçə dəfə dövlət çevrilişlərinə cəhdin qarşısını almış, cəbhədə atəşkəsə nail olmuşdur. Ölkədə ictimai-siyasi sabitlik yaradılmış və respublika müstəqil inkişaf yoluna qədəm qoymuşdur. Xalqımızın böyük oğlu bir vaxtlar müstəqil Azərbaycanın başı üzərində cəmi 23 ay dalğalanan üçrəngli bayrağımızın yenidən əbədi olaraq dalğalanmasını təmin etmişdir. Bu bayraq artıq 23 ildir ki, xalqın qürur mənbəyi kimi dalğalanır və əbədiyyətə qədər dalğalanacaqdır.

Qeyd olunmuşdur ki, bu gün Azərbaycan Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf edir, siyasi, iqtisadi və hərbi sahələrdə böyük nailiyyətlər qazanılır. Hazırda dövlətimiz dünya birliyində özünə layiqli yer tutmuş, bölgədə geosiyasi mövqelərini möhkəmləndirərək beynəlxalq nüfuz sahibi olmuşdur.

Təşkilat sədri müstəqilliyimizin təməlinin ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda qoyulduğunu bildirmiş, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda iqtisadiyyatın inkişaf mərhələləri, aparılmış məqsədyönlü islahatlar və qazanılmış nailiyyətlər barədə də tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Ötən əsrin 90-cı illərinin ortalarında Naxçıvanda inkişafın yeni mərhələsinin – bərpa və dinamik inkişaf dövrünün başlandığını diqqətə çatdıran Qürbət Rzayev bildirmişdir ki, həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmişdir. İqtisadiyyatın dinamik inkişafını şərtləndirən məqsədyönlü tədbirlər əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

Sonra Yeni Azərbaycan Partiyası fəallarından Elvin Məmmədov, Emin Mehbalıyev, Könül İsmayılova və başqaları çıxış edərək dövlət müstəqilliyinin bəhrələrindən danışmışlar.

Muxtar MƏMMƏDOV

*Naxçıvan Dövlət Universitetində 18 oktyabr – Müstəqillik Gününə həsr olunmuş konfrans keçirilib.*

## Müstəqillik Gününə həsr olunmuş konfrans



Konfransda əvvəlcə Azərbaycan Respublikasının ərazi bütövlüyü və azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycan xalqının milli müstəqillik uğrunda çoxəsrlik mübarizəsindən bəhs edib. Qeyd olunub ki, 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi uzun illərdən sonra yenidən bərpa edilib. 1993-cü ildə ölkədə siyasi çəkişmələrin, vətəndaş qarşıdurmasının, milli iğtişaşların gücləndiyi bir dövrdə yenidən siyasi hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev siyasi sabitlik və həmrəyliyi bərqərar etməklə Azərbaycanı dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas edib.

Konfransda Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanovun "Ulu öndər Heydər Əliyev və Azərbaycanın dövlət müstəqilliyi", Mühasibat uçotu və maliyyə kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Mehdi Bağırovun "Azərbaycan iqtisadiyyatı müstəqillik illərində", Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynovun "Naxçıvan Muxtar Respublikası müstəqillik illərində" mövzularında məruzələri dinlənilib. Məruzələrdə dünya şöhrətli siyasətçi, ümummilli lider Heydər Əliyevin XX əsrin sonlarında ölkədə siyasi sabitliyin yaradılmasındakı, beynəlxalq əlaqələrin inkişafındakı əvəzsiz xidmətlərindən, Azərbaycanın bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilməsindən, iqtisadi artım tempinə görə nəinki regionda, həm də dünyada lider mövqeyə çatmasından, Naxçıvandan başlanan milli qurtuluş hərəkatından, ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Azərbaycan xalqının ictimai-siyasi həyatında, tarixi müqəddəratında mühüm əhəmiyyət kəsb edən siyasi qərarlar qəbul etməsindən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müstəqil Azərbaycanın tərəqqisinə xidmət edən uğurlu siyasətindən bəhs olunub.

Mina QASIMOVA

## Yeni məktəb binası təhvilə hazırlanır

Muxtar respublikamızın füsunkar guşələrindən biri olan Şahbuz rayonunda cari ildə də geniş quruculuq işləri həyata keçirilir. Quruculuq tədbirlərindən biri Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin binasıdır. Məktəbin yeni binasının layihəsində gələcək perspektiv nəzərə alınıb. Yeni bina 216 şagird yerlik olmaqla zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Müəllim və şagirdlərin ixtiyarına 12 sinif otağı, hərbi kabinə, kitabxana, laboratoriyalar, idman zalı, açıq idman qurğuları veriləcək. Onlar həm də kompüter və elektron lövhəli siniflərdən istifadə edəcəklər. Tikintiyə kifayət qədər texnika və işçi qüvvəsi cəlb edildiyindən inşaat işləri sürətlə aparılıb.

"Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları gördükləri işin keyfiyyətinə ciddi diqqət yetiriblər. Artıq obyektdə son tamamlama işləri görülür. Məktəbin ərazisində abadlıq işləri həyata keçirilir, gülkarlıqlar salınır.

Xəbərlər şöbəsi

## Gəl tanış olaq, biz bu yurdun əsgərləriyik

Dünən Kəngərli rayonunda yerləşən "N" hərbi hissənin zabit, gizir və əsgərlərinin iştirakı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının növbəti ildönümü münasibətilə tədbir keçirilib. "Gəl tanış olaq, biz bu yurdun əsgərləriyik!" adlı tədbiri Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov açıb. Bildirilib ki, ötən əsrin sonlarında – 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilsə də, ölkədə siyasi çəkişmələrin, vətəndaş qarşıdurmasının gücləndiyi bir dövrdə xalqımız bu müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qalıb. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ilə siyasi sabitlik bərpa olunub, Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilib. Dövlət müstəqilliyinin təməlinin ulu öndər tərəfindən hələ ötən əsrin 70-80-ci illərində qoyulduğunu bildirən polkovnik-leytenant Mirqiyas Rüstəmov sonralar müstəqil Azərbaycanın bu təməllər üzərində inkişaf etdirilərək dünya dövlətləri ilə bir sırada addımlamasına nail olunduğunu söyləyib. Qeyd olunub ki, bu gün sürətlə inkişaf edən Azərbaycanın müstəqilliyinin qorunmasında Silahlı Qüvvələrimizin rolu böyükdür. Azərbaycan Ordusunun maddi-texniki bazasının və şəxsi heyətin mənəvi-psixoloji durumunun, döyüş qabiliyyətinin yüksək səviyyədə olması qarşıda duran istənilən vəzifənin yerinə yetirilməsinə imkan verir. Regionun ən güclü ordusu olan Azərbaycan Silahlı Qüvvələrinin hərtərəfli inkişafında xalq-ordu birliyinin həmrəyliyi danılmazdır. Buna görə də ordumuzun şəxsi heyəti mütəmadi olaraq ictimaiyyət nümayəndələri ilə görüşür, mədəni-kütləvi tədbirlərdə iştirak edir.





Kəngərli Rayon İcra Hakimiyyətinin şöbə müdiri Novruz Kətanov, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, həmin institutun müəllimi, filologiya üzrə fəlsəfə doktoru Həsənəli Eyvazlı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Elxan Yurdoğlu, AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Asəf Orucov çıxış edərək xalq-ordu birliyindən bəhs ediblər. Çıxış edənlər bu cür tədbirlərin şəxsi heyətin mənəvi-psixoloji durumuna müsbət təsir etdiyini vurğulayıblar.

Sonra "N" hərbi hissənin xüsusi hazırlıq bölməsinin nümunəvi çıxışları olub. Tədbirin bədii hissəsində Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının, Naxçıvan Dövlət Filarmoniyasının, eləcə də Kəngərli Rayon Mədəniyyət Evinin yaradıcı kollektivlərinin çıxışları alqışlarla qarşılanıb.

Səbuhi HƏSƏNOV

*Son 20 ilə yaxın bir müddətdə muxtar respublikamızın bölgələrində aparılan genişmiqyaslı quruculuq və abadlıq tədbirləri nəticəsində diyarımızın siması tanınmaz dərəcədə dəyişib. Bu tədbirlərdən öz payını alan rayonlardan biri də Şərurdur. Rayonda genişmiqyaslı sosial infrastruktur layihələri həyata keçirilib, xidmət mərkəzləri, həkim ambulatoriyaları, yeni məktəb binaları, kənd mərkəzləri tikilib, yollar yenidən qurulub, ictimai yaşayış binaları təmir olunub.*

*Müasirləşən kəndlərimiz*

# Diyadinin yeni növrağı



Həmin tədbirlər bu gün də davam etdirilir. Belə ki, hazırda Dizə, Kürkənd və Püsyan kəndlərində məktəb, xidmət və kənd mərkəzləri, həkim ambulatoriyaları inşa olunur, Cəlilkənddə Cəlil Məmmədquluzadənin xatirə muzeyi, mədəniyyət evi təmir edilir, Şərur şəhərində rayonun 10 ayrı-ayrı idarə, təşkilat və müəssisəsinin müasir iş şəraiti ilə təmin olunması üçün nəzərdə tutulmuş dördmərtəbəli binada əsaslı təmir işləri görülür.

Muxtar respublikamızı, Şəruru əhatə edən quruculuq, yeniləşmə Araz çayının sahilində yerləşən Diyadin kəndini də ağuşuna alıb. Oktyabrın 8-də 102 təsərrüfatda 360 nəfərin yaşadığı kənddə yeni məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib.

Kəndin gələcək perspektivləri nəzərə alınaraq tikilmiş yeni məktəb binası 88 şagird yerlikdir. Burada oxuyan 26 şagirdin təlim-tərbiyəsi ilə 18 müəllim məşğul olur. Təqaüdçü müəllim Məmməd Abdullayevlə məktəbin həyətində görüşdük. Sevincinin həddi-hüdudu yox idi. O, fikirlərini bizimlə bölüşdü:

– Müstəqil dövlətimizdə həyata keçirilən bütün tədbirlər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir. Bunun bariz nümunəsini artıq şəhər görkəmi almış rayonumuzun əksər yaşayış məntəqələrinin timsalında aydın görürük. "Muxtariyyət ili"ndə isə yaşadığım doğma Diyadin kəndi də yeniləşən kəndlərimizin sırasına daxil olub. Budur, müstəqilliyimizin təntənəsi, budur, Heydər Əliyev ideyalarının bəhrələri. Gözümü dünyaya Diyadində açmışam. Yetmişə yaxın yaşım var. Nə özüm, nə də ki ata-babalarımız Diyadinin belə xoş günlərini görüblər. İndi ürək necə sevinməsin, fərəhlə döyünməsin? Yeniliklər könül açır axı. Sağ olsunlar təşəbbüskarları, təşkilatçıları, 2014-cü ildə yaddaşımıza silinməz izlər saldılar, bizi çox sevindirdilər. Xüsusilə üçmərtəbəli məktəb binasının tikintisi təhsilə göstərilən tükənməz dövlət qayğısının ən bariz ifadəsidir.

Qeyd edək ki, orijinal memarlıq üslubu ilə tikilən bina kəndin hər yerindən görünür. Diyadinə xüsusi gözəllik bəxş edən binada geniş foyelər, işıqlı sinif otaqları, zəngin fənn kabinələri var. Digər məktəblərdə olduğu kimi, burada da kitabxana yaradılıb, kitabxanaya 2 mindən çox dərslik, bədii ədəbiyyat, ensiklopedik nəşr və lüğət verilib. Həmin vəsaitlərdən səmərəli istifadə olunması diqqət mərkəzində saxlanılır. Məktəbdə kompüter sinfi yaradılıb və təhsil ocağı bu ildən elektron təhsilə keçib. Hazırda şagirdlər 9 kompüterdən və 2 elektron lövhəli sinifdən istifadə edirlər.

Yeri gəlmişkən, onu da deyək ki, 1995-ci ildən ümumi orta məktəb kimi fəaliyyətə başlayan təhsil ocağı şagird kontingentinin artması ilə əlaqədar 2014-2015-ci tədris ilindən etibarən tam orta məktəbə çevrilib. Üçmərtəbəli binada hərtərəfli tədris şəraiti yaradılıb, 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat və müəllimlər otaqları, idman zalı istifadəyə verilib, həyətdə açıq idman qurğuları quraşdırılıb.

Təhsil ocağında yaradılmış laboratoriya və kabinələr avadanlıq və əyani vəsaitlərlə təmin olunub. Şagirdlərin nəzəri biliklərinin praktik biliklərlə zənginləşdirilməsində mühüm rol oynayan laboratoriya və fənn kabinələrindən səmərəli istifadə edilir.

Məktəbdə idman dərslərinin keçilməsinə yaradılan şərait də ürəkaçandır. Bu isə şagirdlərin fiziki hazırlığının inkişaf etdirilməsinə imkan verir.

Uşaqların əqli inkişafına xidmət edən mühüm vasitə kimi şahmatın tədrisi vacib məsələdir. Son illər ümumtəhsil məktəblərində şahmatın tədrisinə diqqətin artırılması da bu məqsədə xidmət edir. Diyadin kənd tam orta məktəbində də şahmat sinfinin yaradılması bu sahəyə diqqət yetirilməsinin nəticəsidir. Sinif otağı şahmat masaları, maqnitli lövhələr və digər əyani vəsaitlərlə təmin olunub.

Məktəbin direktoru Muxtar Ələkbərov söhbət zamanı dedi:

– Məktəbimizin açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri pedaqoji kollektivimizin qarşısına mühüm vəzifələr qoyub. Muxtar respublika rəhbərinin fikirləridir: ***"Məktəbdə nailiyyətləri artırmaq üçün, ilk növbədə, nizam-intizam yaradılmalı, müəllim-şagird münasibətləri qarşılıqlı hörmət və tələbkarlıq prinsipləri üzərində qurulmalıdır. Müəllim nüfuzu qorunmalı, pedaqoji kollektiv daha məsuliyyətlə çalışmalı, vəzifələrini layiqincə yerinə yetirməlidir. Təhsilli və vətənpərvər gənclik hər bir ölkənin gələcəyidir. Müəllimlərin qarşısında ölkəmizin gələcəyini yetişdirmək kimi mühüm bir vəzifə durur. Ona görə də pedaqoji kollektiv şagirdlərlə fərdi qaydada məşğul olmalı, təhsilli və vətənpərvər gənc nəslin yetişdirilməsi daim diqqət mərkəzində saxlanılmalıdır".*** Ali Məclis Sədrinin tövsiyə və tapşırıqlarını fəaliyyət proqramı kimi qəbul etmişik. Ümumiyyətlə, yaradılan şərait kollektivimizin məsuliyyət hissini daha da artırıb.

Bir vaxtlar gözdən uzaq, könüldən iraq düşən Diyadində bu gün gözəlliyi ilə gözoxşayan kənd mərkəzi də ucaldılıb. Müasir layihə əsasında tikilən ikimərtəbəli kənd mərkəzində əhaliyə nümunəvi xidmət göstərilir. Burada kitabxana, klub, rabitə evi, 55 yerlik iclas zalı, polis sahə və feldşer-mama məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün müasir iş otaqları vardır.

Feldşer-mama məntəqəsində mama və manipulyasiya otaqları istifadəyə verilib, otaqların hər biri müasir avadanlıq və bütün lazımi dərman vasitələri ilə təchiz edilib. Tibb işçiləri əhali arasında tibbi maarifləndirməyə geniş yer verir, kənd sakinlərinin sağlamlığının qorunmasında əllərindən gələni əsirgəmirlər. Məntəqədə gördüyümüz kənd sakini Tərifə Rəcəbova dedi:

– Əvvəllər tibb məntəqəmiz şəxsi həyətdə yerləşirdi. İndi, göz dəyməsin, kənd mərkəzində tibb məntəqəsi üçün yaraşıqlı 3 otaq ayrılıb. Allah bizə bu şəraiti yaradanların ömrünü duz dağına döndərsin.

Quruculuq tədbirləri çərçivəsində kənddə müasir rabitə sistemi də qurulub. Rabitə evində müasir ATS quraşdırılıb, əhaliyə bank xidmətinin göstərilməsi təmin edilib. Həmçinin burada POS-terminal qoyulub, kommunal xidmət haqlarının poçt şöbəsi vasitəsilə ödənilməsinə başlanılıb. Rabitə evində kənd sakini Şamxal Məmmədovla qarşılaşdıq. Onun da ürəyi dolu idi:

– İşimiz asanlaşıb. Əvvəllər qaz və işıq pullarını ödəmək üçün 2-3 kilometr yol qət edib qonşu Tumaslı kəndinə getməli olurduq. Bu aydan isə kəndimizdə poçt bölməsi açılıb. Bu gün bura gəlməkdə məqsədim elektrik enerjisi və qaz haqlarını POS-terminal vasitəsilə ödəməkdir. Sevinirik ki, dövlətimizin qüdrəti artdıqca bizim də problemlərimiz həll olunur.

Kənd mərkəzində klub və kitabxananın istifadəyə verilməsi sakinlərin asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir. Kitabxana fondunda 3 min 659 kitab vardır.

Xidmət mərkəzinin də fəaliyyəti kənd əhalisinin tələbatına uyğun qurulub. Burada bərbərxana və qadın gözəllik salonu vardır. Həmçinin mərkəzdə iki mağaza və ət satışı yeri də fəaliyyət göstərir. Mağazaların birində ərzaq, digərində isə müxtəlif sənaye mallarının satışı həyata keçirilir.

Kompleks quruculuq tədbirləri çərçivəsində kənddə bir sıra abadlıq işləri də görülüb, Diyadin kəndi ərazisində 1580 metr, Tumaslı kəndi ərazisində isə 600 metr məsafədə kənddaxili yollara asfalt örtük salınıb, 340 metrlik beton kanal və 8 su keçidi tikilib. Abadlıq tədbirləri zamanı rabitə və elektrik şəbəkələrinin təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılıb.

Diyadində olarkən daha bir neçə ağsaqqalla görüşüb həmsöhbət olduq. Kəndin dünənindən, bu günündən danışdıq, sabaha fikir körpüsü saldıq. 85 yaşlı Zalı Hüseynov ürəyindən keçənləri dilə gətirdi:

– Kəndimizdə bu cür geniş abadlıq-quruculuq işlərinin aparılması ürəyimizi dağa döndərib. Artıq uşaqlarımız təzə məktəbdə oxuyurlar. Bir neçə ildən sonra kəndimizdən çıxan ziyalıların sayı da artacaq. "Ziyalı" sözünü əbəs yerə demədim. O, bir nurdu, işıqdı. Elə bir işıq ki, insanları öz ətrafına toplaya bilir, gücü, qüvvəni birləşdirir və faydalı istiqamətə yönəldir. Kəndimizdə belə müasir məktəb binasının istifadəyə verilməsi məni çox sevindirir. Kənd və xidmət mərkəzləri də az əhəmiyyət daşımır. Dövlətimiz bunları yaradıb ki, yaşayış səviyyəmiz yaxşılaşsın. Təbii ki, göstərilən diqqət və qayğıdan mənəvi rahatlıq tapırıq. Ən əsası isə dövlətimizə və sabahımıza olan inamımız artır. İnsanı həyata bağlayan, onu yaşadan da elə inam deyilmi?

Tumaslı kənd inzibati ərazi dairəsi 3 yaşayış məntəqəsini əhatə edir. Onlardan biri də Diyadin kəndidir. Kəndin 303 hektar torpaq sahəsi vardır. Bunun 75 hektarı pay torpağıdır. Kənd adamları, əsasən, əkinçilik və heyvandarlıqla məşğul olurlar.

Kənd sakini Tofiq Mirzəyevin dediklərindən:

– Bir vaxtlar həyətdə quraşdırılan dəmir çardağa, yaxud sənədi olmayan daşa, taxtaya, sementə görə adamı sorğu-suala çəkirdilər. İndi gözəl zamandı, yaşamalı dövrandı. Qabiliyyəti, bacarığı olanlar, necə deyərlər, şah kimi yaşayırlar. Diyadində ailə var ki, qapısında 15-20 baş inək-camışı, sürü ilə qoyun-quzusu var. Şəxsi minik maşını da öz yerində. Torpaq neçə illərdir, özümüzə verilib, üstəlik, torpaq vergisindən də azad olunmuşuq. Hələ əkin-biçinlə məşğul olan kəndliyə verilən yardımları, güzəştli şərtlərlə satılan gübrəni, məhsuldar cins mal-qaranı demirəm. Fərasətli olanlar ailə-uşağını yığıb başına işləyir, yaxşı da qazanır.

Bəli, yaxşı dolanışıq belələrinin halal haqqıdır. Dövlətimizin də istəyi budur: adamlar yaxşı işləsinlər, qazansınlar və firavan yaşasınlar.

Kənd sakini Teymur Babayev isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin kənd sakinləri ilə görüşündən söhbət açdı:

– Kəndimizin sakinləri hələ də həmin görüşün təəssüratı ilə yaşayırlar. Obyektlərin açılışından sonra bizimlə görüşən Ali Məclisin Sədri dedi: ***"Kənd yaşayış məntəqələrinin müasirləşdirilməsi əhalinin rahatlığının təmin olunmasına hesablanmış tədbirlərdir. Bu gün Diyadin kəndində müasir məktəb binasının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi də sakinlərin rahatlığına xidmət edəcəkdir. Bu tədbirlər kənddə məskunlaşmanın artmasına, əhalinin torpaqlardan, fərdi təsərrüfatlardan səmərəli istifadə etməsinə şərait yaradacaqdır. Kəndin bərəkətli torpaqları, zəhmətkeş insanları vardır. Bu da əkinçiliyin inkişafına, əhalinin məşğulluğunun təmin olunmasına və rifahının yüksəldilməsinə imkan verəcəkdir".***

Görüş zamanı mən də ürək sözlərimi söylədim. Dedim ki, kəndimizdə yeni sosial obyektlərin istifadəyə verilməsi, yollarımızın yenidən qurulması biz sakinlərin böyük sevincinə səbəb olub. Muxtar respublikanın digər yaşayış məntəqələri kimi, Diyadin kəndinin inkişafına da daim diqqət göstərilir. Araz çayının sahilində yerləşən bu yaşayış məntəqəsində insanların yaşayışı üçün hər cür şərait yaradılıb. Aparılan sahilbərkitmə işləri kənddə torpaqların yuyulmasının qarşısını alıb. Bu da əkinçiliyin inkişafına səbəb olub. Kəndimizdə heyvandarlıq inkişaf etdirilir, fərdi təsərrüfatlar genişləndirilir. Bütün bunları yaradılan şəraitin nəticəsi kimi dəyərləndirdim və kənd sakinləri adından minnətdarlığımı bildirdim.

***Bəli, bu gün Diyadin yeni dövrünü yaşayır. Ən önəmli cəhət odur ki, bir vaxtlar ağır yaşayış şəraitindən şikayət edib mərkəzə, paytaxta gedənlər indi geri qayıdırlar. Axı niyə də qayıtmasınlar? Müstəqillik işığının növrağına bürünən gözəlliklər məskəni Diyadində yaşamağa dəyər.***

Cəfər ƏLİYEV

## Fasiləsiz və təhlükəsiz təbii qazla təminat üçün möhkəm baza yaradılıb

***Muxtar respublikada istehsalçıların təbii qazla fasiləsiz təmin olunması üçün ardıcıl tədbirlər həyata keçirilir. "Naxçıvanqaz" İstehsalat Birliyindən bildiriblər ki, istehlakçıların təbii qazla fasiləsiz təmin edilməsi ilə yanaşı, bu sahədə infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır, mövcud qaz xətlərində təmir işləri aparılır, istismar müddəti başa çatmış xətlər yeniləri ilə əvəz olunur.***

Əhali abunəçilərinin normal, sabit və təhlükəsiz qaz təchizatını təmin etmək məqsədilə alınmış qaztənzimləyici şkaflar və qaztənzimləyicilər tələb olunan yerlərdə quraşdırılıb. Təbii qazın itkisiz olaraq yerlərə çatdırılması, israfçılığın qarşısının alınması və sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi ilə əlaqədar tədbirlər davam etdirilib, istismarda olan qaz sayğaclarına mütəmadi olaraq baxış keçirilib, istismara yararsız 27 min 532 ədəd sayğac yenisi ilə əvəzlənib.

O da bildirilib ki, abonentlərin təhlükəsizliyi də diqqət mərkəzində saxlanılıb, baş verə biləcək hər hansı bir qəzanın vaxtında aradan qaldırılması üçün şəhər və rayon Qaz İstismarı idarələrində qəza dispetçer xidmətlərinin 24 saat fəaliyyəti təmin edilib, qəza briqadaları ixtisaslı mütəxəssislərlə komplektləşdirilib və onlar lazımi texnika ilə təmin olunublar. Ayrı-ayrı yaşayış məntəqələrində vaxtaşırı olaraq reydlər keçirilir, abonentlər tərəfindən istifadə edilən qeyri-standart qaz sobalarının xətdən kənarlaşdırılması ilə əlaqədar tədbirlər görülür. Eyni zamanda əhali arasında maarifləndirici söhbətlər aparılır, abonentlərə təhlükəsizlik qaydaları izah olunur.

Muxtar respublikamızın yaşayış məntəqələrində yeni tikilən yaşayış evlərinin vətəndaşların müraciətinə əsasən qazlaşdırılması işi də uğurla aparılıb, yeni sayğaclar quraşdırılıb və qaz təchizatı haqqında müqavilə bağlandıqdan sonra təbii qazın verilməsinə başlanılıb. Ümumilikdə, muxtar respublikada 83 min 574 istehlakçı təbii qazdan istifadə edir ki, onlardan 888 abonent, 103 müəssisə cari ilin 9 ayında təbii qazla təmin olunub.

Sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi də diqqət mərkəzində saxlanılıb, 2014-cü ilin 9 ayında enerji istehsal edən müəssisələr nəzərə alınmadan istehlak olunan 127 milyon 31 min 451 kubmetr qazın satışından 11 milyon 914 min 655 manat vəsait əldə edilib, ödəmə 93,8 faiz olub. Əhali abunəçiləri üzrə istehlak olunan 73 milyon 135 min 397 kubmetr qazın satışından toplanan vəsait 6 milyon 694 min 907 manata çatıb ki, bu da 91,5 faiz ödəmə deməkdir.

2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar kompleks tədbirlər həyata keçirilib. Qaz təsərrüfatında istismarda olan magistral, daşıyıcı və paylayıcı qaz kəmərlərinə, eləcə də onlar üzərindəki kranlara, siyirtmələrə və qaztənzimləyici şkaflara müntəzəm olaraq texniki baxış keçirilib, aşkar edilmiş nöqsanlar aradan qaldırılıb. İstehlakçılara verilən təbii qazın təzyiqinə hər ay texnoloji rejim tətbiq edilib və ölçü qovşaqlarında nəzarət işi diqqətdə saxlanılıb. Qaz itkisi olan istiqamətlərin müəyyən edilməsi və onları doğuran səbəblərin aradan qaldırılması üçün təxirəsalınmaz işlər görülüb. Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, xətt təsərrüfatında baş verə biləcək hər hansı bir nasazlıq vaxtında aradan qaldırılacaq, əhali fasiləsiz və təhlükəsiz təbii qazla təmin ediləcəkdir.

Kərəm HƏSƏNOV

*17 oktyabr Yoxsulluqla Beynəlxalq Mübarizə Günüdür*

# Muxtar respublikanın sosial-iqtisadi inkişafı əhalinin rifahını yüksəltmişdir

***Yoxsulluq tarixən bəşəriyyəti narahat edən əsas sosial problemlərdən biri olmuşdur. Ölkələr bu ciddi problemlə tarix boyu mübarizə aparmış, yoxsulluğun aradan qaldırılmasına çalışmışlar. Bu səbəbdən də 1992-ci il dekabrın 22-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası hər il oktyabrın 17-nin "Yoxsulluqla Beynəlxalq Mübarizə Günü" kimi qeyd olunması barədə qərar qəbul etmişdir.***

Ötən əsrin 70-ci illərindən başlayaraq ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın iqtisadi inkişafının sürətləndirilməsini, sosial sahədə dinamik inkişaf tempinin təmin edilməsini diqqət mərkəzində saxlamış, əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Lakin müstəqilliyimizin ilk illərində ölkəni bürüyən siyasi böhran və iqtisadi tənəzzül əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuş, nəticədə, yoxsulluq səviyyəsi yüksəlmişdi. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra isə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu dövrdən başlayaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi və yoxsulluğun aradan qaldırılması istiqamətində ardıcıl tədbirlər görülmüş, bu sahədə dövlət proqramları qəbul olunaraq icra edilmişdir. Ulu öndərin 2003-cü il 20 fevral tarixli Fərmanı ilə təsdiq olunmuş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın icrası bu problemin həllinə stimul olmuşdur.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, yoxsulluğun tamamilə aradan qaldırılması məsələsi ölkə Prezidenti cənab İlham Əliyevin də daim diqqət mərkəzindədir. Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən dövlət başçısının 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə qəbul olunmuş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın icrası bu sahədə görülən işlərin məntiqi davamıdır. Həmçinin müxtəlif dövrləri əhatə edən regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilmiş digər proqramların icrası ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Əməkhaqlarının, pensiya və müavinətlərin artırılması, yeni təqaüdlərin təsis edilməsi əhalinin maddi rifahının yüksəlməsinə, nəticədə, yoxsulluq səviyyəsinin azalmasına zəmin yaratmışdır.

Sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsini yaşayan Naxçıvan Muxtar Respublikasında ötən dövr ərzində əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəlməsi, onların etibarlı sosial müdafiəsinin təşkili, aztəminatlı, xüsusi qayğıya ehtiyacı olanların sosial təminatlarının gücləndirilməsi və yoxsulluğun azaldılması istiqamətində uğurlu nəticələr əldə edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası infrastrukturun genişlənməsini, sosial xidmətlərin keyfiyyətinin yüksəlməsini təmin etmişdir. Yeni istehsal sahələrinin istifadəyə verilməsi əhalinin məşğulluq səviyyəsinin artmasına və yoxsulluq səviyyəsinin azalmasına səbəb olmuşdur. İnsan amilini əsas tutan sosialyönümlü iqtisadi siyasət nəticəsində əhalinin gəlirləri artmış və həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Nəticədə, son 10 il ərzində sosial-iqtisadi inkişaf sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın makroiqtisadi göstəricilərinin yaxşılaşmasına səbəb olmuş, Ümumi Daxili Məhsulun həcmi 13,9 dəfə, sənaye məhsulları istehsalı 49 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə, əsas kapitala investisiya qoyuluşu 16,4 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 10,3 dəfə artmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası növbəti mərhələdə muxtar respublikanın sosial-iqtisadi inkişafında, əhalinin rifahının daha da yaxşılaşmasında mühüm rol oynayacaqdır.

Sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, istehsal müəssisələrinin fəaliyyətə başlaması və yeni iş yerlərinin yaradılması muxtar respublikada həyata keçirilən iqtisadi islahatların əsas tərkib hissəsidir. Nəticədə, hər il onlarla irili-xırdalı müxtəliftəyinatlı sahibkarlıq subyekti yaranır. Həmçinin kənd təsərrüfatının inkişafının dəstəklənməsi, xüsusilə fermer təsərrüfatlarının yaradılması və əkinçiliyin inkişafına maliyyə dəstəyinin göstərilməsi, bu sahəyə ayrılan kreditlərin həcminin artması kənd yaşayış məntəqələrində əhalinin məşğulluğunun təmin olunmasına imkan verir. Bütün bunlar isə muxtar respublikada əhalinin rifahının yüksəldilməsinə və yoxsulluq səviyyəsinin azalmasına səbəb olur.

Müasir dövrdə əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması və onlardan səmərəli istifadə mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi ilə əmək bazarının tənzimlənməsində mühüm nəticələr əldə edilmiş, işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar yaradılmışdır. Muxtar respublikada hər il kompleks məşğulluq tədbirləri, o cümlədən əmək yarmarkaları keçirilir. Həmçinin əmək bazarında ixtisaslı kadrlara olan tələbatın ödənilməsi, işsiz və işaxtaran vətəndaşların müxtəlif peşələrə yiyələnməsi, eləcə də onların məşğulluğunun təmin edilməsi məqsədilə peşə kursları təşkil olunur. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər, pensiya, təqaüd və müavinətlərin məbləğinin mütəmadi olaraq artırılması, yeni təqaüdlərin təsis edilməsi də sosial müdafiəyə ehtiyacı olan insanlara göstərilən dövlət qayğısının təzahürüdür.

Muxtar respublikada əhalinin sosial rifahının gücləndirilməsi, o cümlədən aztəminatlı və xüsusi sosial qayğıya ehtiyacı olan şəxslərin həyat səviyyələrinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan şəxslərə müxtəlif növ sosial xidmətlər göstərilir. Belə ki, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın ləğvində iştirak edərək sağlamlığını itirənlərə və 1941-1945-ci illər müharibəsi əlillərinə bu günədək, ümumilikdə, 409 minik avtomobili verilmiş, 188 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evləri ilə, 3 min 250 məhdud fiziki imkanlı şəxs müxtəlif texniki reabilitasiya vasitələri, həmçinin bu kateqoriyadan olan 1600 şəxs isə sanatoriya və müalicə pansionatlarına göndərişlərlə təmin olunmuşlar. Bundan əlavə, sosial təminat sahəsində aparılan islahatların davamı olaraq, aztəminatlı ailələrin maddi rifah halını yaxşılaşdırmaq məqsədilə 2006-cı ildən başlayaraq aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə ünvanlı dövlət sosial yardımı ödənilir.

Bu gün muxtar respublikada məşğulluq səviyyəsinin yüksəldilməsi, infrastrukturun yenilənməsi, sosial xidmətlərin keyfiyyət və həcminin artırılması nəticəsində dinamik inkişaf təmin olunmuşdur. Dövlət büdcəsindən sosial sahələrə ayrılan maliyyə vəsaitlərinin həcminin artırılması, sosial infrastrukturun inkişafı bundan sonra da əhalinin həyat səviyyəsinin davamlı olaraq yüksəlməsinə və yoxsulluq səviyyəsinin minimum həddə qalmasına zəmin yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil olunub





***Oktyabrın 16-da Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 90 illiyi ilə əlaqədar istedadlı qadın və qızların rəsm və əl işlərinin sərgi-satışına başlanmışdır.***

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbirin məqsəd və mahiyyətindən danışmışdır. Qeyd olunmuşdur ki, muxtar respublikada müxtəlif fəaliyyət sahələri ilə məşğul olan qadınlar kimi, xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaratmağı özlərinə fəaliyyət sahəsi seçən və asudə vaxtlarını bu işlərə sərf edən qadınlara da xüsusi önəm verilir. İstedadlı qadınlara istər texniki köməkliyin göstərilməsində – onların müəyyən avadanlıqlarla təmin edilməsində, istərsə də mənəvi dəstək göstərilməsində dövlətimizin qayğısı əvəzsizdir. Son illər istedadlı qadınların məşğulluğu təmin edilir, onların rifah halının yüksəldilməsi üçün əl işlərinin satışı təşkil olunur. Bundan əlavə, qadınların müəyyən peşələrə yiyələnmələri, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün muxtar respublikada xalçaçılıq, keçəçilik, dərzi, ağac üzərində oyma kimi peşə kursları təşkil olunur. Sevindirici haldır ki, bu kurslara sağlamlıq imkanları məhdud qadınlar da cəlb edilir, nəticə olaraq, onların həyata bağlılıqları daha da möhkəmləndirilir.

Ramilə Seyidova bu diqqət və qayğıya görə muxtar respublika qadınları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını ifadə etmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının 90 illiyi ilə əlaqədar silsilə tədbirlər keçirilməkdədir. Rəsm və əl işlərindən ibarət sərgi-satışın keçirilməsi də bu tədbirlərdən biridir. Məqsəd isə qadın və qızlarımızın istedad və bacarıqlarını üzə çıxarmaq, qədim dövlətçilik ənənələri və dəyərləri olan Naxçıvanımızın son illərdə keçdiyi şərəfli yolunu tablolara köçürmək və yaşatmaqdır.

Tədbirdə Naxçıvan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva çıxış etmişlər.

Sonra sərgiyə baxış olmuşdur. Sərgi-satışda tam orta, orta ixtisas və ali təhsil müəssisələrinin istedadlı müəllim, tələbə və şagirdləri iştirak etmişlər. İstedadlı qadın və qızların millilik duyulan əl işlərinin yer aldığı bu sərgi-satışda rəsm əsərlərindən, apilkasiya, viraj tipli əl işlərindən, daş üzərində oyma, toxuma, tikmə və digər sənət növlərində hazırlanmış əsərlərdən ibarət 157 nəfərin 343 əl işi nümayiş olunur. Sərgilənən əsərlərdə qədim və müasir Naxçıvanın siması yaradılmış, xalqımızın şərəfli qədim keçmişinə və zəngin mifologiyasına, çağdaş mövzulara həssaslıqla toxunulmuş, bu əsərlərdə, nəticə etibarilə, 90 ilin Naxçıvanı ifadə olunmuşdur. Rəsm əsərlərində tarixi-memarlıq abidələrimizin, qədim qalalarımızın təsviri, toxuma və tikmə işlərində üslub və rəng əlvanlığının zənginliyi, xalqımızın toy və digər mərasimlərinə aid adət-ənənələrimizin sənət əsərlərində əks etdirilməsi ustalıqla işlənmiş, milli keyfiyyətlərə üstünlük verilmişdir. İstedadlı qadın və qızlarımız həm rəsm əsərlərində, həm də digər əl işlərində Naxçıvan tarixini bu sənət əsərlərində əks etdirməklə keçmişimizi gələcəyə ötürməyin yollarını seçmişlər. Bu sənət əsərlərindən bizə agah olan budur ki, istedadlı qadınların yaradıcılığında məhz milli ornamentlərə bağlılıq və istedad amili daha güclüdür. Həmçinin sərgilənən əsərlər bizə zəngin daxili aləmə, həyat haqqında fərqli təsəvvürə malik istedadlı qadınların muxtar respublikanın 90 ili və xalqımızın milli ruhu ilə dialoqunu göstərir.

Sərgi-satış 10 gün davam edəcək.

**Sara ƏZİMOVA**

# Fond maarifləndirici tədbirləri davam etdirir

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu Aparatının və fondun Naxçıvan Şəhər Şöbəsinin təşkilatçılığı ilə maarifləndirici tədbir keçirilmişdir.***

Pensiya siyasəti, sosial sığorta qanunvericiliyi və sosial sığorta sistemində fərdi uçotun tətbiqi məsələlərinə həsr olunan tədbiri Dövlət Sosial Müdafiə Fondu Aparatının rəhbəri Vüsal Sevdimalıyev açaraq ölkəmizdə həyata keçirilən pensiya islahatlarından danışmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu Aparatının Gəlirlər şöbəsinin müdiri Yaşar Məmmədov, Fərdi uçotun təşkili şöbəsinin müdiri İsmayıl Həsənov və Pensiya təyinatı şöbəsinin aparıcı məsləhətçisi Həbib Rzayev sosial sığorta qanunvericiliyindən, məcburi dövlət sosial sığorta haqlarının "onlayn ödəmə" sistemi vasitəsi ilə ödənilməsindən, sosial sığorta sistemində fərdi uçotun tətbiqindən, pensiyaların təyinatı və ödənişinin müasir üsullarla həyata keçirilməsindən danışmışlar.

Qeyd olunmuşdur ki, son illər ərzində sosial sığorta sahəsinin sürətli inkişafı bu sahədə elektron xidmətlərin tətbiqini zəruri etmişdir. Fond informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə vətəndaşlara və təşkilatlara göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və bu xidmətlərin təqdimedilmə müddətinin azaldılması məqsədilə müxtəlif tədbirlər həyata keçirir. Bura məcburi dövlət sosial sığortası sahəsində şərti yığımı təmin edəcək sığortaolunanların fərdi hesabları üzrə ödənilmiş sığorta haqları barədə məlumat bazasının yaradılması, bütün mövcud proseslərin, yəni həm məcburi dövlət sosial sığorta haqlarının toplanması və fərdi uçotunun qurulması, həm pensiyaların məbləğinin hesablanması, həm də onların ödənişi və ödənişinə nəzarətin avtomatlaşdırılması kimi tədbirlər daxildir.

Fərdi uçot sisteminin əhəmiyyətindən də bəhs edilən tədbirdə qeyd edilmişdir ki, fərdi uçot sisteminin əsas məqsədlərindən biri sığortaolunanların gələcəkdə alacaqları pensiyaların hansı məbləğdə olacağını qabaqcadan müəyyənləşdirmələrinə şərait yaratmaqdır. Fərdi uçotla bağlı yaradılmış bazadan istifadə etməklə sosial sığorta iştirakçıları haqqında dəqiq məlumat almaq mümkündür. Bu da, öz növbəsində, sığortaolunanın pensiyaya çıxacağı haqqında dəqiq proqnozların verilməsinə, sığortaolunanlar və sığortaedənlər tərəfindən ödənilməli və ödənilmiş olan məcburi dövlət sosial sığorta haqlarına daha asan və çox vaxt sərf etmədən nəzarət etməyə imkan verir.

Naxçıvan şəhərində sığorta-pensiya sistemi ilə əlaqədar görülən işlər haqqında fondun Naxçıvan Şəhər Şöbəsinin müdiri vəzifəsinin müvəqqəti icraçısı Emin Əliyev tədbir iştirakçılarına məlumat vermişdir.

Tədbirin sonunda yeni əmək fəaliyyətinə başlayan bir qrup vətəndaşa onların fərdi uçot sistemində qeydiyyata alındığını və onlar üçün fərdi şəxsi hesab açıldığını təsdiq edən sosial sığorta şəhadətnaməsi verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***Gənclərin ahəngdar və harmonik inkişafını təmin etmək müasir dövrün humanist ideyalarından biridir. Bunun üçün uşaq və yeniyetmələrin hərtərəfli inkişafı əsas şərtdir. Təbii ki, bu inkişafda insanın mənəvi və fiziki sağlamlığı mühüm rol oynayır. Məhz sağlamlığın qorunmasında idmanın geniş şəkildə yayılması, uşaqların bu sahəyə daha çox cəlb olunması əsasdır. Buna görədir ki, ölkəmizdə bu sahəyə xüsusi qayğı göstərilir.***

# Muxtar respublikada uşaq və gənclər vətənpərvər ruhda yetişdirilir

Fiziki sağlamlıq mənəviyyatla yanaşı, vətənpərvərlik tərbiyəsinə də müsbət təsir edir. İdman fiziki sağlamlığın əsas amillərindən biridir. Bu sahə ilə məşğul olan uşaqlar dözümlü, iradəli olur, Vətənin müdafiəsində cəsarətlə iştirak edirlər. Naxçıvan Muxtar Respublikasında gənc nəslə yaradılan şərait onların gələcəyi üçün təminatdır. Ümumiyyətlə, gənclər adət-ənənələrimizin daşıyıcısı, milli-mənəvi dəyərlərimizin qoruyucusu, cəmiyyətin aparıcı qüvvəsidir. Bu qüvvənin fiziki və mənəvi sağlamlığı daim diqqətdə saxlanılır. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra xalqımızın həyatında yeni bir dövr başladı və idman sahəsində köklü dəyişikliyin əsası qoyuldu, gənclərin fiziki və mənəvi inkişafına nail olmaq üçün mühüm qərarlar qəbul edildi. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan idmanı özünün yeni inkişaf dövrünə qədəm qoydu. İdmanı dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi səciyyələndirən, onu ümummilli mədəniyyətin tərkib hissəsi kimi dəyərləndirən ulu öndər Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində Azərbaycanda idmanın maddi-texniki bazası möhkəmləndi, bu sahə daim diqqətdə saxlanıldı. Ümummilli liderimiz deyirdi: ***"Fiziki sağlamlıq və fiziki güc mənəvi sağlamlıqla bərabər, Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir. Amma bu xüsusiyyət həmişə bizim daxilimizdə qalıbdır. Keçmiş dövrlərdə pəhləvanlarımız da, güləşçilərimiz də, oxatanlarımız da fiziki imkanlarını cürbəcür oyunlarda nümayiş etdirənlərimiz olubdur. Ancaq məlum olan səbəblərə görə bunlar yalnız ölkəmizin çərçivəsində qalıb, dünya miqyasına çıxmayıbdır".***

Gənclərin fiziki sağlamlığını ən vacib məsələ kimi önə çəkən ulu öndər bilirdi ki, Vətənimizin keşiyində yalnız fiziki cəhətdən sağlam gənclər dura bilərlər. Onun yürütdüyü siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Hər bir idmançını böyük arenalara aparan yol uşaq idmanından başladığı üçün ölkəmizdə, eləcə də muxtar respublikamızda uşaq idmanına xüsusi qayğı göstərilir. Uşaqların fiziki inkişafında, vətənpərvər ruhda böyümələrində böyük rol oynayan idmanın inkişafı bu gün vacib məsələlərdən biri kimi muxtar respublika rəhbərinin daim diqqətindədir. İndi Naxçıvanda yaradılan idman cəmiyyətləri, idman növləri üzrə fəaliyyət göstərən federasiyalar, təhsil ocaqları bu inkişafa öz töhfələrini verirlər. İdmanın inkişafında uşaq-gənclər idman məktəblərinin rolu böyükdür. Hazırda muxtar respublikadakı idman məktəblərində təcrübəli məşqçilər tərəfindən uşaq və gənclərə idmanın sirləri aşılanır. Belə idman məktəbləri minlərlə uşaq, yeniyetmə və gəncə müxtəlif idman növlərinin sirlərini aşılamaqla yanaşı, həm də gələcək nəslin sağlam böyüməsində mühüm rol oynayır.

Hər bir fərdin şəxsiyyət kimi formalaşmasında, onun əsl vətəndaş kimi yetişməsində fiziki tərbiyə və idmanın böyük rolu var. İdman yeniyetmə və gənclərin milli mənlik şüurunun, vətənpərvərlik və mübarizlik hisslərinin formalaşmasında xüsusi rol oynayır. Vətənpərvərlik böyük məfhumdur. Vətənpərvərlik tərbiyəsi uşaqların milli mənlik şüurunun, dünyagörüşünün formalaşması və inkişafına, həmçinin onların həyat hadisələrini düzgün dərk etmələrinə imkan verir. Mənlik hissi, daha dəqiq desək, milli mənlik şüuru hər bir şəxsin daxili xarakterini, insanlara, cəmiyyətə olan münasibətini ifadə edir. Ölkəmizdə gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi ümummilli lider Heydər Əliyevin diqqət yetirdiyi ən vacib məsələlərdən biri olub. Azərbaycanın müstəqilliyi, gələcək müqəddəratı üçün uşaq və gənclərin sağlamlığı, sağlam gənc nəslin yetişməsi üçün bu, son dərəcə vacib məsələ idi. Gənclərin vətənpərvərlik, Vətənə, dövlətə sədaqət və onun ərazi bütövlüyünün qorunması ruhunda tərbiyə olunmaları müharibə şəraitində yaşayan ölkəmizdə günümüzün vacib məsələlərindəndir.

Bu gün Naxçıvan Muxtar Respublikasında uşaq və gənclərin fiziki və mənəvi inkişafı, onların sağlam həyat tərzi yaşamaları, zərərli vərdişlərdən uzaq olmaları diqqət mərkəzində saxlanılır. Məhz bu proses idmanla tənzimlənir. Muxtar respublikamızda tədris olunan idman növləri gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində böyük rol oynayır. Dünya təcrübəsi göstərir ki, ekstremal şəraitdə özlərini sınayan gənclər fiziki cəhətdən daha sağlam olur, çeviklik və cəsarətli olmaqla fərqlənirlər.

Son illər muxtar respublikada keçirilən beynəlxalq yarışlar, turnirlər onu göstərir ki, ulu öndərimiz tərəfindən əsası qoyulan idman siyasəti bu gün Naxçıvanda layiqincə davam etdirilir. Muxtar respublikada həyata keçirilən idman siyasətinin əsas məqsədlərindən biri də uşaq və gənclərin vətənpərvər ruhda yetişdirilməsidir.

*Məhəmməd Tağı Sidqi – 160*

# Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi M.T.Sidqi irsinin təbliğatçısıdır

***XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, maarifçilik ideyalarının təbliğatçısı Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 avqust 2014-cü il tarixli Sərəncamı elm, təhsil və mədəniyyət müəssisələri qarşısında mədəni tədbirlərin keçirilməsi kimi mühüm vəzifələr qoymuşdur.***



**M.T.Sidqinin ailə üzvləri – 1933-cü il**
***Soldan yuxarıda:*** oğlu Rüfət (Paşa), gəlini Valya, qızı Dostuxanım, gəlini Məsumə, gəlini Gülçöhrə, naməlum.
***Ortada:*** oğlu Məmmədəli, Məsumənin anası Tükəzban xanım, naməlum, oğlu Məmmədhəsən.
***Aşağıda:*** Məmmədhəsənin qızı Təhminə, oğlu Sidqi, Məmmədəlinin qızı Sara, oğlanları Ağamusa və Ağarza.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində də sərəncama uyğun olaraq tədbirlər planı hazırlanmış, "Məhəmməd Tağı Sidqi guşəsi" yeni eksponatlarla daha da zənginləşdirilmişdir.

Guşədə Xalq rəssamı Hüseynqulu Əliyev tərəfindən kətan üzərində yağlı boya ilə çəkilmiş Sidqinin portreti, onun ailə üzvləri, oğlu Məmmədhəsən həyat yoldaşı Gülçöhrə xanımla, oğlu Məmmədəli Sidqi Səfərov, Ordubadda "Əxtər" məktəbinin binası, Məhəmməd Tağı Sidqinin məzarı və digər fotoşəkillər nümayiş olunur.

Eyni zamanda sərgidə ədəbiyyatşünas alimlərdən akademik İsa Həbibbəylinin "Məhəmməd Tağı Sidqi. Əsərləri", Əsgər Qədimovun "Məhəmməd Tağı Sidqinin həyatı və yaradıcılığı", İbrahim Mollayevin "Məhəmməd Tağı Sidqinin pedaqoji görüşləri", Yavər Eyvazovun "Məhəmməd Tağı Sidqi", Akif Axundov və Eldar Əfəndiyevin "İşıqlı adamlar", Maqsud Mahmudzadənin "Dünyanın bəzəyi – Naxçıvan", "Cəlil Məmmədquluzadənin naxçıvanlı müasirləri" və sair kitablara yer ayrılmışdır.

Uzun müddət mədəniyyət sahəsində işlədiyimə görə Məhəmməd Tağı Sidqinin ailəsi ilə bağlı iki xatirəni qeyd etmək istərdim.

Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadənin anadan olmasının 100 illiyi münasibətilə Bakı şəhərindən yüzlərlə elm, mədəniyyət, incəsənət xadimi, ədəbiyyatşünas alimlər qədim Naxçıvan diyarına qonaq gələrək ədibin adını daşıyan muzeyin açılış mərasimində iştirak edirdilər. Görkəmli maarifpərvər şair, publisist Məhəmməd Tağı Sidqinin oğlu Məmmədhəsən Sidqi və onun oğlu Sidqi Səfərov da iştirak edənlər arasında idi.

14 iyun 1967-ci il tarixdə onlar muzeydə olmuş, öz ürək sözlərini bu cür ifadə etmişlər:

"Naxçıvanın gözəl bir guşəsində yeni bir abidə ucaldı, təzə bir mədəniyyət ocağı açıldı. Bu, böyük Mirzə Cəlilin adını daşıyan Azərbaycan Ədəbiyyat Muzeyidir. Ekspozisiya bizim təsəvvür etdiyimizdən də gözəl və təmtəraqlı çıxmışdır. Mirzə Cəlilin adına layiq olan muzey eyni zamanda xalqımızın ölməz sənətkarına böyük hədiyyədir. Təzə muzeyin kollektivinə muzeyi gələcəkdə yeni-yeni eksponatlar hesabına zənginləşdirmək yollarında müvəffəqiyyətlər arzulayırıq".

Daha bir görüş... 1989-cu il sentyabr ayının 29-da Məhəmməd Tağı Sidqinin oğlu Məmmədəli Sidqinin nəvəsi Bahar xanım Əsədova Naxçıvana gəlmiş, Ədəbiyyat Muzeyində olmuşdur. O, ekspozisiya ilə tanış olarkən Cəlil Məmmədquluzadənin məslək yoldaşı, babası Məhəmməd Tağı Sidqinin guşəsi ilə tanış olmuşdur. Guşədə 1933-cü ilin bir şəkli onun diqqətini cəlb etmişdir. Bu, Məhəmməd Tağı Sidqinin ailəsinə məxsus bir şəkil idi. Bahar xanım şəkildə əks olunan 15 nəfər şəxsin 13 nəfəri haqqında bizə ətraflı məlumatlar verdi. O, şəkildəkilərin Məhəmməd Tağı Sidqinin üç oğlu – Məmmədəli, Məmmədhəsən, Rüfət (Paşa), qızı Dostuxanım, Məmmədəlinin həyat yoldaşı Məsumə xanım, oğlanları Ağamusa və Ağarza, qızı Sara, Məsumənin anası Tükəzban xanım, Məmmədhəsənin həyat yoldaşı Gülçöhrə xanım, oğlu Sidqi, qızı Təhminə, Rüfətin (Paşanın) həyat yoldaşı Valya olduğunu bildirdi.

Maarifçi kimi şöhrət qazanan, tədris müəssisələrinin açılmasında misilsiz xidmətləri olan şair-publisist Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi Naxçıvan Muxtar Respublikasının bütün ədəbi və pedaqoji ictimaiyyəti tərəfindən geniş qeyd olunur.

Azərbaycan təhsili tarixində özünəməxsus yeri olan Məhəmməd Tağı Sidqi elmə, maarifə, mədəniyyətə, əxlaqa çox yüksək qiymət vermiş və demişdir: "Elm və ədəb bir xəzinəyə bənzər ki, onun kilidi məktəbdir", "Məktəb cəhalət dərdinin dərmanı, mərifət bağının xiyabanıdır".

***Biz muzey işçiləri Məhəmməd Tağı Sidqinin çoxsahəli fəaliyyətini qiymətləndirmək, ədibin xatirəsini yad etmək məqsədilə silsilə tədbirlər keçirir, onun həyat və yaradıcılığının, pedaqoji fəaliyyətinin təbliğinə çalışırıq.***

**Xanım İSMAYILOVA**
*Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin baş fond mühafizi*

# "Nuh yurdu" intellektual bilik yarışının final mərhələsi keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və "Naxçıvan Muxtar Respublika Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Nuh yurdu" intellektual bilik yarışının final mərhələsi keçirilib. İntellektual bilik yarışının keçirilməsində məqsəd yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını artırmaq, onların asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etmək olub. Naxçıvan şəhərindəki Gənclər Mərkəzində keçirilən və 12 komandanın iştirak etdiyi final yarışının nəticələrinə görə, birinci yerə Ordubad rayonunun "Dübəndi", ikinci yerə Babək rayonunun "İstedadlar", üçüncü yerə isə Naxçıvan şəhərinin "Nəqşi-cahan" komandaları layiq görülüblər.

Qalib komandalara təşkilatçılar tərəfindən diplom, fəxri fərman, kubok və qiymətli hədiyyələr təqdim olunub.

*Topaz Premyer-Liqasının 8-ci turunda "Araz-Naxçıvan" futbol komandası doğma arenada "AZAL" futbol komandasını qəbul edəcək.*

# "Araz-Naxçıvan" "AZAL"-a qarşı

Oktyabrın 18-də Naxçıvan Muxtar Respublika Stadionunda baş tutacaq görüş saat $15^{00}$-də başlayacaq. Komandamız bu gün oyunun keçiriləcəyi stadionda son məşqinə çıxacaq və oyunun başlama saatını gözləyəcək. Muxtar respublika təmsilçisinin heyətində zədəli futbolçular, demək olar ki, tam sağalıblar və yalnız bu matçı zədəli olan Hüseyn Axundov, Azərbaycanın 19 yaşlılardan ibarət millisinə dəvət olunan Budaq Nəsirov buraxmalı olacaqlar.

Rəqibə gəlincə, "AZAL" komandası bu gün Naxçıvana gələcək. "Təyyarəçilər" görüşün keçiriləcəyi stadionda məşqə saat $17^{00}$-də çıxacaqlar.

# Azərbaycan kuboku oyunlarının püşkü atıldı

Oktyabrın 15-də futbol üzrə Azərbaycan kuboku oyunlarının püşkatma mərasimi keçirilib. AFFA-nın inzibati binasında keçirilən tədbirdə 1/16 və 1/8 final mərhələsinin cütləri bəlli olub. Azərbaycan kuboku uğrunda oyunların keçirilməsinə oktyabrın 22-də start veriləcək. Cari ildə "Araz-Naxçıvan" futbol komandası kubok oyunlarına ikinci mərhələdən, daha dəqiq desək, 1/8 final mərhələsindən başlayacaq. Bu mərhələdə muxtar respublika təmsilçisinin rəqibi "Xəzər-Lənkəran" komandası olacaq. Görüş dekabrın 3-də Lənkəranda oynanılacaq və bu mərhələnin oyunları bir görüşdən ibarət olacaq.

Bu mərhələni adlayacağı təqdirdə "Araz-Naxçıvan" 1/4 finalda "İnter"- "Şahdağ" oyununun qalibi ilə qarşılaşacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan: AZ-7000,**
**Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.**
**Telefonlar: Məsul katib: 545-62-47**
**Şöbələr: 545-81-44, 545-51-18**
**Müxbirlər: 545-75-21, Faks: 544-52-52**
**E-mail: serqqapisi@nakhchivan.az**

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

**Nömrəyə məsul: Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 874**